# Muzeylərimiz dünənimizi yaşadır

**Tarixə qovuşmuş 2023-cü il Azərbaycan muzeylərində həyata keçirilən bir sıra layihələrlə əlamətdar olub.**



İlk növbədə, qeyd edilməlidir ki, Azərbaycan Milli Xalça Muzeyində ötən il xeyli tematik ekskursiya, mühazirə, kitab təqdimatı, ustad dərsləri ilə yadda qalıb. Bu baxımdan “Heydər Əliyev İli” ilə bağlı Ümummilli liderə həsr olunmuş “Mədəniyyətlərarası dialoq və etnik özünəməxsusluq” mövzusunda beynəlxalq elmi konfransı və “Tarixin salnaməsi” adlı sərgini göstərmək olar. Daha bir mühüm hadisə isə 31 ildən sonra Şuşa şəhərində muzeyin filialının fəaliyyətinin bərpası, nadir Qarabağ xalça nümunələrinin yenidən doğma diyarda sərgilənməsidir. Həmçinin muzey bu il peşəkarların rəyləri əsasında verilən “Ekspertlərin seçimi mükafatı”na layiq görülüb.

Azərbaycan Milli İncəsənət Muzeyində “Heydər Əliyev – 100: sevimli əsərlər”, “Türkiyə–Azərbaycan qardaşlığı: Anadoludan əsintilər”, “Mədəni yaddaşımızda Qərbi Azərbaycan”, “Miniatür-sayağı”,“Çin incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından”, və “Zamanla dialoq” sərgiləri maraqla qarşılanıb.

Milli Azərbaycan Tarixi Muzeyində 2021-ci ildə yaradılan Vətən müharibəsi fondunun zənginləşdirilməsi istiqamətində il ərzində işlər davam etdirilib. Muzeyi ümumilikdə 12 400 nəfər ziyarət edib ki, onların da 5100-ü xarici qonaqlar olub.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində hər il olduğu kimi, görkəmli şəxsiyyətlərin yubileyləri, əlamətdar hadisələrlə bağlı tədbirlər, konfranslar, seminarlar təşkil olunub. S.Urməvinin 825, Ə.Marağayinin 670, M.M.Nəvvabın 190 illiyinə həsr edilən “Klassik Şərq və Azərbaycan poeziyası və musiqisinin mədəniyyətlərarası səsləşmənin “İpək yolu kimi” mövzusunda beynəlxalq konfrans, Ümummilli liderin 100 illik yubileyi çərçivəsində “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı” mövzusunda respublika konfransı, “Mən azərbaycanlıyam” adlı ədəbi-musiqili gecə, həmçinin peşəkar milli teatrın 150 illiyi ilə əlaqədar “Azərbaycan dramaturgiyası və Azərbaycan milli teatrı” mövzusunda elmi konfrans keçirilib.

İl ərzində Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində, onun filiallarında və muzeydən kənarda ümumi 55 tədbir keçirilib. “Gənclərə dəstək layihəsi” çərçivəsində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə birgə “Fortepiano musiqisi axşamı”, “XX əsrin musiqisi”, “Bir çərşənbə axşamı”, “Bahar gəlir”, “Gitara musiqisi axşamı” adlı konsertlər təşkil olunub. Tədbirlərdə qonaqlara mövzular üzrə ekspozisiyada nümayiş olunmayan, arxiv materialları əsasında hazırlanmış slayd-şoular vasitəsilə muzeyin zəngin fondları ilə tanış olmaq imkanı yaradılıb.

İstiqlal Muzeyində “Ürəklərdə yaşayan dahi şəxsiyyət” adlı ədəbi-bədii tədbir, “Millətə adanmış ömür” adlı tədbir-sərgi maraqla qarşılanıb. Burada, həmçinin ziyarətçilər üçün Azərbaycan, rus və ingilis dillərində 330 ekskursiya təşkil olunub. C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində əlamətdar mədəniyyət hadisələri, yubileylərlə bağlı müxtəlif tədbirlər keçirilib. “Heydər Əliyev və Azərbaycan” adlı layihə uğurla həyata keçirib. Ölkəmizdə keçirilən I Beynəlxalq TÜRKSOY Teatr Festivalı ilə bağlı rəssamların tamaşalara çəkdikləri dekorasiya və geyim eskizlərindən ibarət “Eskizdən səhnəyə” adlı səyyar sərgi ilə də çoxsaylı ziyarətçilər tanış olublar.

**XQ**